**AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ**
**COMMISSIONER FOR HUMAN RIGHTS OF THE REPUBLIC OF AZERBAIJAN**

# OMBUDSMAN

**AZ1000, Bakı şəhəri, Hökumət evi, Üzeyir Hacıbəyli küçəsi, 80. Tel./faks: (+994 12) 498 85 31; 493 74 22**

№ 2-5/2-29944/2026 7 İyul 2026-cı il

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2026-cı il 25 iyun tarixində keçirilmiş, Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş **"Dövlətin və təsərrüfat subyektlərinin mənafelərinin müdafiəsində auditin rolu"** mövzusunda beynəlxalq konfransla bağlı ünvanladığınız 2026-cı il 30 iyun tarixli 10-1/2-393/2026 nömrəli məktubunuza görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Konfransın yüksək səviyyədə təşkil olunması, mövzu ətrafında aparılan faydalı müzakirələr, eləcə də Türkiyə, Qazaxıstan və Özbəkistandan olan qonaqların iştirakı tədbirin əhəmiyyətini daha da artırmışdır. Hesab edirəm ki, bu tədbir insan hüquqlarının müdafiəsi, şəffaflıq, hesabatlılıq, ictimai maraqların qorunması və audit institutunun rolu barədə səmərəli fikir mübadiləsi üçün mühüm platforma olmuşdur.

Rəqəmsal transformasiya və süni intellekt texnologiyalarının sürətli inkişafı şəraitində əməkdaşlığımızın bu istiqamətdə gücləndirilməsi ilə bağlı cari ilin dekabr ayının birinci ongünlüyündə birgə tədbir keçirilməsi təşəbbüsünə göstərdiyiniz dəstəyinizi yüksək qiymətləndirirəm. Əminəm ki, bu istiqamətdə əməkdaşlığımız müasir çağırışlara uyğun yeni müzakirə və təşəbbüslər üçün faydalı imkan yaradacaqdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı ilə Auditorlar Palatası arasında formalaşmış səmərəli əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inanıram.

Sizə və rəhbərlik etdiyiniz kollektivə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Səbinə Əliyeva**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı
İmzalayan şəxs: Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva
İmzalanma tarixi: 7 İyul 2026-cı il
Qeydiyyat nömrəsi: 2-5/2-29944/2026
İmzalanmış sənəd :
Qoşma sənəd : https://qr.ombudsman.az//Download/DownloadFile?code=HwAjgjggoKUm1ocq3YmPnA==